# "TÜRK ÇƏLƏNGİ": MİLLİ ÖZGÜRLÜK NÜMUNƏSİ



*Mahmud ALLAHMANLI*
*filologiya elmləri doktoru, professor*

Böyük maarifçi, uşaq ədəbiyyatının, pedaqoji mühitin görkəmli nümayəndəsi A.Şaiqin təxminən yüz il bundan əvvəl tərtib etdiyi "Türk çələngi" yenidən (Bakı: Elm və təhsil, 2024) geniş ictimaiyyətə təqdim olunmuşdur. Əvvəlcə onu deyim ki, bu təqdimat, daha doğrusu, müntəxəbatın içıq üzü görməsi keçmişə, klassiklərimizə, həm də pedaqoji fikir tariximizə sayğının ifadəsidir. Son dövrün yeniləşən və həm də problemlərlə dolu gəlişmələrində dərslik yaratmaq məsələsi bütün parametrləri ilə mübahisələrə, əlavə münasibətlərin (mövqelərin) ortaya çıxmasına səbəb olur. Çünki işi işbilənə tapşırarlar və dərslik, müntəxəbat yaratmaq məsələsi elə də asan olan deyildir. Burada illərin təcrübəsi və ayrı-ayrı yaş dövrlərinin ehtiyacına hesablanan ən uğurlu örnəklərin seçimi zəruridir. Buna isə bütün səviyyələrdə vətəndaşlıq məsuliyyəti ilə yanaşmaq lazımdır. Gəlinən yol, klassik müəllimlərin iş təcrübəsi bütün hallarda bunun üçün bir örnəkdir.

On doqquzuncu yüzillikdən üzü bəri gedən proseslər ictimai-siyasi, ədəbi-mədəni, dini-ideoloji mürəkkəbliklərin qarşıdurmaları, yaşananların mürəkkəb xarakterliliyi ilə diqqət önünə gəlir. Maarifçilik hərəkatı, dünyanın ziqzaqlı gedişləri və imperiya məfkurəsinin xalqlar səviyyəsində həyata keçirdiyi tendensiyalı yanaşma konsepsiyası bütün məzmunu ilə milli məfkurənin oyanışını əsasa çevirirdi. A.Bakıxanovun, M.Ş.Vazehin, İ.Qutqaşınlının, M.F.Axundovun, S.Ə.Şirvaninin, C.Ünsizadənin, H.Zərdabinin, F.Köçərlinin, M.Mahmudbəyovun, H.Ə.Qayıbovun, R.Əfəndiyevin, S.M.Qənizadənin, A.Səhhətin və s. onlarla başqalarının bu prosesdə müstəsna rolu olmuşdur. M.Ş.Vazehin "Kitabi-türki" (1850, Qriqoryevlə birgə), S.Ə.Şirvaninin "Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883), A.O.Çernyayevskinin "Vətən dili" (1882), R.Əfəndiyevin "Uşaq bağçası" (1898), "Bəsirətül-ətfal" (1901), M.Mahmudbəyovun "Birinci il" (1907), "İkinci il" (1908), A.Şaiqin "Uşaq gözlüyü" (1910), "Gülzar" (1912), F.Köçərlinin "Balalara hədiyyə" (1912), F.Ağazadənin "Ədəbiyyat məcmuəsi" (1912) və s. kimi uğurlu dərslik və müntəxəbat nümunələri özlüyündə milli oyanışın pedaqoji fikir tarixində parlaq örnəkləridi. A.Şaiqin tərtib etdiyi "Türk çələngi" müntəxəbbatı 1919-cu ildə geniş auditoriyaya təqdim olunmaqla aparılan işlərin dinamik mənzərəsini faktlaşdırdı.

Azərbaycanın müstəqilliyindən sonra görülən işlər sırasında müstəsna əhəmiyyət kəsb edən məsələlərdən birisi tarixi keçmişə olan həssas münasibət və klassiklərin gördüyü möhtəşəm işlərin təkrarən dövriyyəyə gətirilməsidir. Ayrı-ayrı kafedralar, institutlar timsalında görülən işlər, ilkin nəşrlər sırasında çıxan kitablar bunun bariz örnəyidir. Buraya tədqiqatları da əlavə etdikdə məsələnin mahiyyəti daha da böyüyür və milli özünüifadənin bir normativ olaraq funksional çəkisi, həm də aparıcılığı göz önünə gəlir. Tərtib, transliterasiya, Ön söz və lüğətin müəllifi fologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyevaya bu möhtəşəm çələngi təkrarən dövriyyəyə gətirdiyi üçün minnətdarlığımı bildirirəm. Təfsilatlı, həm də çox dəqiqliklə yazılmış başlanğıc sözündə vurğulanır ki, "Abdulla Şaiq öz zəif vücudu ilə böyük bir ideoloji işi həyata keçirdi. Doğrudur, ədib bunu böyük əziyyətlər hesabına, həm də pillə-pillə, addım-addım gerçəkləşdirdi. Əsas hədəfi ana dilində danışan, milli düşüncəli, soy-kökünə bağlı, Vətəninə, millətinə yararlı vətəndaşlar yetişdirmək olan böyük pedaqoq öz missiyasını layiqilə yerinə yetirdi". "Türk çələngi"nə qədər gördüyü gərəkli işlər, eləcə də ondan sonrakı dövrdəki fəaliyyətyi bütün simpatiyası və xarakter məzmunu ilə nümunəyə çevrilir.

Pedaqoji fikir tarixinin magikanlarından olan A.Şaiq ruhu və varlığı (həm də düşüncəsi) ilə gənc nəslin maariflənməsi, yüksək əxlaqi-dəyərlər əsasında formalaşması üçün ömrünü mayak etmişdir. Dünyanın yeniləşən məzmunu və yeni tipli məktəblərin yaranması sahəsində atılan addımlar, eləcə də dərslik problemlərinin aradan qaldırılması sahəsində görülən gərəkli işlər, H.Zərdabinin, M.F.Axundovun yazışmaları, "balalarımızın başa düşəcəyi sadə aydın, səlis dillə əsərlər yaradaq" çağırışı, uşaq mətbuatı ("Dəvistan", "Rəhbər", "Məktəb" və s.) sırf reallığın hadisəsi olaraq meydana çıxmışdı. "Türk çələngi" də həmin proseslərin dönməzliyinin göstəricisi idi. Beş bölmə altında qruplaşdırılan bədii örnəklər böyük maarifçi-pedaqoqun zəngin təcrübəsinin nəticəsi olmaqla, şagirdlərin bacarıq və qabiliyyətlərinin ortaya çıxması və milli-mənəvi dəyərləri aşılamaq kimi bir məqsədə köklənir. "Vətən" başlığı altında verilən nümunələr şagirdlərə yurd, torpaq müqəddəsliyini aşılamaq məqsədi daşıyır. Bədii örnəklərin məzmun qatı və informasiya yükü, yüksək sənət intelleksiyası ilə sərgilədiyi ifadəlilik, həm də təsir bunun örnəyidir. B.Ələddinin "Bayrağım", M.Ə.Tofiqin "Qanın üsyanı", Ə.Müznibin "Azərbaycan", A.Ş.Talıbzadənin "Vətənin yanıq səsi", Ə.Hikmətin "Altun ordu", M.Əminin "Yurdumuzun iniltisi", Ə.Suadın "Əhmədin cihadı" və s. kimi bədii nümunələr rüşdi və edadi məktəbinin üçüncü, dördüncü sinifləri üçün nəzərdə tutulmuş mətnlərdir. Ə.Müznibin kitabda yer almış "Azərbaycan" şeiri zəngin informasiya qatı, ümumiləşdirmə məzmunu, janr fakturası ilə tipikdir.

Azərbaycan çəlik qollar bağçası,
Bakıxanlar gülzarıdır bu ölkə.
Məhəmməd xan,Əhməd xanlar məskəni,
Cavad xanın məzarıdır bu ölkə.

Turan irqi bu ölkədə boy atmış,
İgidliyin sancağını ucaltmış,
Dünyaları qeyrət ilə donaltmış,
Qəhrəmanlar peykarıdır bu ölkə.

Göründüyü kimi, "Azərbaycan", "Vətənin yanıq səsi", "Altun ordu", "Sancaqdar", "Osmanlı gənci", "Yurdumuzun iniltisi" və s. bədii nümunələr bilgi vermə, bacarıq və qabiliyyət aşılama, uşaqların təsəvvürlərini genişləndirmək məqsədilə seçilmiş və topluya salınmışdır. Ə.Müznibin "Azərbaycan" şeirindəki adlar və qəhrəmanlıq duyğusallığı şagird marağını yönləndirmək, Turan və turançılıq təsəvvürünün nəyə bağlandığını aydınlaşdırmaq üçün əsaslı bir qaynaqdır. Mətnlə tanış olan şagird bu adların və informasiyaların hansı dövrə aid olmasını öyrənmək məqsədi ilə müəllimə müraciət edir, yaşanan keçmiş haqqında dolğun bilgiyə yiyələnir. Müntəxəbatın bu cür başlıqlar altında təqdimi təsadüfi deyil, sırf məqsədyönlü fəaliyyətin nəticəsidir. A.Şaiqin zəngin müəllimlik təcrübəsi, yaradıcı istedadı və şagird maraqlarını (həm də bacarığını) bir araya gətirmə qabiliyyəti burda öz töhfəsini vermişdir.

"Türk çələngi" üçün diqqətçəkici tərəf adın ehtiva etdiyi məzmun və mətn zənginliyidir. Daha doğrusu, buradakı bədii örnəklər türk xalqlarının ədəbiyyatını əhatə etmək baxımından




müsbət təsəvvür formalaşdırır. Arxaik qatın çox dərin təsəvvürünə dayanan turançılıq məfkurəsi min illərin düşüncəsinin hərəkətliliyi və oyanışı olaraq burada boy göstərməsi imkanları ilə spesifikləşir. Real mühitin yaratdığı şərait böyük maarifçinin bu adı ("Türk çələngi") müntəxəbatın başlığına gətirməsi üçün əsas olmuşdur. Seçilən nümunələr səviyyəsində özünü göstərən məfkurə də toplayıcı və tərtibçinin səriştə və düşüncəsində özünə yer almış arxaik yaddaşın oyanışına vəsilədir. Şərqdə ilk demokratik dövlətin (Azərbaycan Xalq Cümhuriyyətinin) yaranması məhz milli oyanışın, turançılıq məfkurəsinin hərəkətliliyi üçün bir başlanğıc rolunu oynadı. Görülən işlər, aparılan ideoloji dəstəxətt bütün istiqamətlərdə bunu prinsipləşdirdi və "Türk çələngi" də bunun nümunəsi olaraq ortaya çıxdı. Kitabda olan müəlliflərin bütünlükdə türk xalqlarını əhatələmək məqsədi və məramı təkrarən əski yaddaşda oturuşmuş təsəvvür və modelin reallaşma nümunəsidi. Arxaik qatdakı epos məfkurəsi, protürk zamanının hekayətləri, cahanşümul dövlət düşüncəsi və s. bütün zamanlara işıq tutacaq yaşam konsepti kimi həmişə oyaq olmaqla özünü ayaqda saxlayır.

Müntəxəbatda digər bir hissəni "Təbiət" bölməsi altında toplanan nümunələr təşkil edir. Canlı aləmin zəngin flora və faunası, ekosistem səviyyəsində sərgilədiyi mənzərə bütün zamanlarda uşaqların marağına səbəb olmuş və mənimsəmək (həm də öyrənmək) üçün müstəsna əhəmiyyət kəsb etmişdir. Animizm, antropomorfizm, fetişizm, totemizm səviyyəsində yaşananlar və günümüzə daşınıb gələnlər bunun əvəzsiz nümunəsidir. Ə.Hikmətin "Dünya yaradılırkən", İ.Məlihin "Qızım Ümidəyə", İ.Hikmətin "İlk xəndə", S.P.Sezainin "İki yüz əlli quruşa bir əsr", "İstanbulda yıldızlı bir gecə", N.Əlkazımin "Xəyalın ümidi", "Ağlayan qəhqəhələr" və s. nümunələr mövzu və məzmun çeşidliliyi ilə məktəblilərin dünyagörüşlərinin, təsəvvürlərinin genişlənməsi, oxu bacarıqlarının formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Məsələn, bir mətn nümunəsinə diqqət yetirək: "On üç gecəlik ay sarı və yuvarlaq varlığının altun işıqları yıqıq qulubəciklər, yeşil və geniş üzərinə sərpiyordu. Ova və qulübələr o qədər səssiz və gözəldi ki, bu tatlı və ılıq gözəlliyin qarşısında quşlar belə baygın bir uyğuya dalmışlardı. Yalnız uzaqlarda ormanın içində axan dərənin çağıltısından başqa bir şey eşidilmiyordu". N.Əlkazımının "Ağlayan qəhqəhələr" hekayəsindən verdiyimiz bu nümunə mətn informasiya və təqdimat unikallığı ilə yaşananları gənc bir qızın düşüncələri timsalında sərgiləyir. Kiçik bir mətn ciddi bir təfsilatı təbiət insan həyat reallığı timsalında uşaq yaddaşına həkk edir.

Və yaxud da İ.Hikmətin "İlk xəndə" şeirində əksini tapan təsvir-təqdimat təbiət, dünyanın yaranışı, insan anlamında maraqlı bilgi verməK məqsədi ilə spesifikləşir. Xalq arasında dünyanın yaranışı və nizamı ilə əlaqədar çoxlu əhvalt, əfsanə, rəvayət, mif örnəkləri vardır və ədəbiyyatın yazılı qolunda da bu tip təsəvvürlərin müxtəlif şəkillərdə özünə yer alması müşahidə olunur. İ.Hikmət də ilk xəndə (gülüş) anlamında təsəvvürlərini diqqətçəkici şəkildə təqdimə yüklənir.

Bir müəbbəd, dərin qaranlıqdan,
Xəlq olmuş bəşər nədən bilməm.
O zəif sinəsində bir matəm,
Yer edinmiş, yaşar bu gün ələn.

Göyü yırtdıqca qanlı bəriqələr,
Titrəmiş xof içində günlərcə.
Gün batıb qaplayınca ərzi-gecə,
Uçuşurmuş önündə xariqələr.

Xalq arasında dolaşan əsatir, əfsanə örnəklərindən çıxış edən İ.Hikmət ibtidai təsəvvürdə olanları bədii mətnə gətirir və "qapanıb xakə eləmiş səcdə" deməklə inam və etiqadların, sınama və miflərin mahiyyətinə işıq tutur. Ədəbiyyatın yazılı və şifahi qolu bütün mahiyyəti ilə əski təsəvvürləri, xalq yaddaşında olanları əks etdirmək və bir təfəkkür potensiyası olaraq ötürməyə yüklənir.

"Məişət" başlığı altında verilən bölmədə özünə yer almış Q.Yıldızın "Qavalın dərdi", Q.Bəxtiyarın "Nərə", Y.Nadirinin "Həqiqi inqilab", İ.Əlvinin "Yapraq", Ş.Nihalın "Qış gecəsi", "Səfillər", M.Əminin "Biraq, yapma", Ə.Hikmətin "Bir damla qan", R.Səbatinin "Həyat bulan Validəm üçün", S.Bikənin "Qırıq kasə", M.Xalidin "Fədakar Validə", X.Ədibin "Allahın nuru", T.Fikrətin "Dəvənin başı" və s. kimi nümunələr mətn informasiyası, bədii-estetik tutumu ilə nəzər-diqqəti cəlb edir. Böyük pedaqoq, şair, yazıçı, maarifçi A.Şaiq məktəbin problemlərini dərindən bilən və onu aradan qaldırmaq üçün gərəkli işlər görmək baxımından nümunə olan şəxsiyyətlərdəndir. "Türk çələngi" özünəqədərki ənənənin davamı olaraq yaradılmış və gərəkli bədii mətn nümunələrinin seçimi ilə səciyyələnir.

*(Davamı 15-ci səhifədə)*

*(Əvvəli 14-cü səhifədə)*

Məsələn, Q.Yıldızın "Qavalın dərdi" mətn simvolikası, işarələnmənin alt qatında olanlar, mənalandırma texnologiyası və s. ilə bir keçmişi və gələcəyə doğru yönlənən olacaqları, yaddaşı daşımaq imkanları ilə spesifikləşir. "Kölgə uzandı, güneş qızardı... Ətrafı bir sessizlik aldı. Axşam qəribliyi uzaqlara sinmişdi. İxtiyar çeşmənin yosunlu yüzündən sızan sular yalağa mırıl-mırıl akıyor, yanında şu gödək incəlik dalı onu öpmək istər kibi sarkıyor.

Ağacların altı qoyulaşdı. İləridə dağlar əflatun-əflatun rənglərə boyandı. Qavallar hər zamankı kibi sakit başlarını qaldırıb səssizliyi dinlədilər.

Bir qarğa əcələ ilə qanadlarını çəkərək yuvasına dönüyordu. Kölgələr əridi. Güneş batdı. Hər tərəf susdu, susdu və dinlədi.

Uzaqda bir qaval ağlıyordu.

Kim bilir? Kim bilir? Hankı zavallı, hankı çarəsiz? Bu cansız qamışa acılarını, ələmlərini döküyor və o bitmək-tükənmək bilməyən iniltilərlə". Eləcə də kitabda özünə yer alan digər mətnlər zəngin informasiya, bilgi vermə xüsusiyyəti ilə məktəblilərin dünyagörüşünü, həyata baxışını, təsəvvürlərini genişləndirmək məqsədi daşıyır. Hər bir bədii nümunə dil zənginliyi, sadəlik və etnik düşüncədə oturuşmuş əfsanə, rəvayət örnəklərini bir qaynaq olaraq əhatələməklə tərbiyə, əxlaq, davranış örnəyi olaraq əvəzsizlik qazanır.

# "TÜRK ÇƏLƏNGİ": MİLLİ ÖZGÜRLÜK NÜMUNƏSİ

Çeşidli başlıqlar altında qruplaşdırılan müntəxəbatda mühüm bir hissəni "Tarixi hekayə və mənzumələr" adı ilə verilən örnəklər təşkil edir. "Faruq Əzim", "Ömər bin Əbdüləziz", "Əsma Bint Əbubəkr", "Ərəblər", "Karvan" və s. kimi hekayətlər tarixi bilgi və təsəvvürləri əks etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Xalq yaddaşında dini şəxsiyyətlər haqqında bir-birindən maraqlı söyləmələr özünə yer almaqdadır. Ə.Suadın "Böyük türk", Ə.Hüseynzadənin "Türk dili", T.Alpın "Qərbə zərbə", Gökalpın "Türklük tufanı" və s. bədii nümunələr məktəblilərin bilik və bacarıqlarını, dünyagörüşünü tarixilik anlamında formalaşdırmaq, örnək olma missiyası ifadə edir. "Ulun əkə Xatun" adlı əhvalat-hekayə türk qəhrəmanlıq tarixində qadınların rolunu aydınlaşdırmaq baxımından tipikdir. "Bir zamanlar Yezukey Baturun şanlı bayrağı altında bu qədər müzəffəriyyətlər qazanmış olan monqol uluğlarının böylə kəndisini, çocuqlarını buraxıb, dağıdıb getmələri Ulun əkəyi atəşləndirdi. Bu böyük qadın xarqüladə ərlik, qeyrət göstərdi. Qocasının atına bindi, sadiq qalan atlıları ətrafına topladı, əlinə Yezikey Baturun göy bayrağını aldı, qaçanların arxasından qoşdu. Sancağa sədaqəti unutmuş bu cəng ərləri Ulun əkəyi matəm əlbisəsilə, qocanın cəng atına binmiş, qocanın müzəffər sancağını tutmuş aralarında görüncə, Yezukey Baturu görür kibi oldular. Əski şərəfli günləri xatırladılar, qəlbləri taştı, etdiklərinə peşiman olaraq ağladılar və sancağın arqasına düşərək Yezukeyin qəbri yanına döndülər". Bu nümunələrin hər birisi yaşanan tarix olaraq məktəblərin əxlaq və tərbiyəsinə, şəxsiyyət kimi formalaşmasına mühüm təsir edən örnəklərdir. Çingiz xan, Babur xan, Səlahəddin Əyyubi, Şeyx Şamil və s. kimi böyük şəxsiyyətlərlə bağlı verilən nümunələr türkün, türklüyün, turançılığın və cahanşümul dövlət düşüncəsinin təlqinidir.

Sonuncu bölmə "Türk şairləri" adlanır və burada Məhmət Əminin "Silah səsləri və barut qoquları", "Kin", "Qurani-Kərim", "Dəmirçi", "Buraq bəni hayqırayım", "İştə o gün", "Fənər", "Gəmiçi", Ziya Göyalpın "Altun yurd", "Ərqənəkon", Əli Canibin "Turanın yolu", "Yapraq", "Yıldırım", "Qaval", "Şərqin üfüqləri", "Qız duası" və s. nümunələr bütün məzmunu ilə millimənəvi dəyərlərin gənc nəslə aşılanması baxımından mühüm əhəmiyyət kəsb edir. M.P.Vaqif, S.Ə.Şirvani, M.Ə.Sabir, H.Cavid, Ə.Hüseynzadə yaradıcılığından verilən nümunələr türk xalqlarının təkcə zəngin etnoqrafik mədəniyyətini, sənət ənənəsini aşlamaqla məhdudlaşmır, eyni zamanda ayrı-ayrı şəxslər timsalında yaşanan şərəfli tarixi bütün olanları ilə diqqət önünə gətirir. Görkəmli maarifçi, şair, yazıçı, dramaturq, uşaq ədəbiyyatının qüdrətli sənətkarı A.Şaiqin "Türk çələngi" kitabı bizim gediləcək yolumuzun zərgər dəqiqliyi ilə müəyyənləşmiş konseptidir. Belə möhtəşəm mədəniyyət abidələrinin isə təkrarən dövriyyəyə gətirilməsinə daha çox ehtiyacımız vardır.